

# Azərbaycanın müstəqilliyi, xalqın xoşbəxtliyi naminə fədakarlıq nümunəsi

***❐ Ulu öndər Heydər Əliyev irsi araşdırılarkən bəlli olur ki, onun çox maraqlı, mürəkkəb, zəngin, keşməkeşli bir ömür yolu olmuşdur. Onun fenomen şəxsiyyət olması istər-istəməz möhtəşəm bir irsi özündə ehtiva edir. Bu da indimizin, sabahımızın və gələcəyimizin strategiyasının əsasını qoymuşdur.***

Ümummilli lider Heydər Əliyevin fenomen şəxsiyyətlərdən olmasına fikir bildirməkdən ötrü dərin elmi araşdırmaya zəruri ehtiyac vardır. Təbii olaraq bunu vacib edən amillərdən biri, sözsüz ki, onun şəxsi keyfiyyətləri ilə bağlıdır. Bu mənada Heydər Əliyevin şəxsiyyət kimi formalaşması prosesinə və onu digərlərindən fərqləndirən cəhətlərə diqqət yetirməyə çalışaq.

Qeyd etməliyik ki, ictimai münasibətlər sferasında dayanan bu sualın cavabı siyasi məzmun daşıyır və insanın fəaliyyətinin qiymətləndirilməsini tələb edir, fəaliyyət isə ölçü ilə müəyyənləşir. Qədim ellinlər demişlər: “Ölçüdən yüksək heç bir şey yoxdur. Ölçü – səadət və harmoniyanın əsasıdır istehsalda ölçü, qurub-yaratmaqda ölçüsüzlük”. Bu sözlər belə bir fikir doğurur: fəaliyyət bütün dövrlərdə insanın xarakterini müəyyənləşdirir. İkinci sualın məzmununa bu deyimin harmonik prizmasından baxsaq görəcəyik ki, Heydər Əliyevin fəaliyyəti heç bir ölçüyə sığmayan fenomenlikdir. Bir gündə on dörd, on altı saat fasiləsiz işləmək nə deməkdir?! Göründüyü kimi, yüksək intellektual təfəkkürə malik olan bu fenomenin həyat konsepsiyası Vətənə xidmət, xalqın böyük dərdçəkənliyi olmuşdur. Digər tərəfdən, yəni rəsmi baxımdan bu sualın belə konkret bir cavabı da var: o, tarixçi, arxitektor, iqtisadçı, siyasətçi idi, xarakteri bütöv idi. Hamının gördüyü şeyi görür, hamının eşitdiyini eşidirdi, lakin mənalandırıb nəticə çıxarmaqda tələsmirdi. Başqa bir cəhətinə diqqət yetirdikdə məlum olur ki, yaddaşı işıqlıdır, fikirləri parlaq və aydındır, səbirlidir. Bunların hamısı müdrikliyə məxsus əlamətlərdir. Onun hər bir fikri istər fəlsəfi, istərsə də ictimai-siyasi, yaxud dini bir fikri müasirlərini hərəkətə gətirirsə, o böyük adamdır, şəxsiyyətdir. Müdrik el kəlamlarında deyildiyi kimi, “Şəxsiyyəti olmayan xalq bədbəxtdir, olanı qiymətləndirməyən, qorumayan xalq isə ikiqat bədbəxtdir”.

Məhz fenomen şəxsiyyət, Heydər Əliyevin hakimiyyətə xalq tərəfindən gətirildiyi 1993-cü ilin ikinci dönəminə diqqət yetirsək, deyilənlərin təsdiqi aydın şəkildə görünər. Bu mənada 1993-cü ilin iyun ayından başlayaraq ümummilli lider Heydər Əliyevin gördüyü işlərin qismən də olsa xronologiyasına diqqət yetirsək bəlli olar ki, o, müasir Azərbaycanımızın təməl prinsiplərinin möhkəmlənməsi naminə hansı fədakarlıqlar etmişdir. Hər şeydən əvvəl atəşkəsə nail olmuş, Azərbaycanın haqq səsinə dünya dövlətlərində inam yaratmış, bazar iqtisadiyyatına sərbəstlik vermiş, qardaş qırğınının qarşısını almış, öz mənəvi aləminin sosializmdən irs olaraq aldığı tərəflərini əxlaqi və psixoloji cəhətdən aradan qaldırmışdır, mühafizəkar ənənələrdən xilas olmuşdur, mənəvi cəhətdən yüksəyə qalxmış, öz milli adət-ənənəsinə qayıtmış, müqəddəs Kəbəni ziyarət etmiş... Bütün bunlar insan şəxsiyyətinin formalaşmasının nə qədər mürəkkəb bir proses olduğundan xəbər verir.

Ümummilli lider Heydər Əliyev hələ sovetlər dövründə respublikaya rəhbərlik edəndə də xalqın xeyrinə çalışmış, saysız-hesabsız sənaye və mədəniyyət obyektləri tikdirmişdir. Onda bir tarixçi kimi, belə bir qənaət yaranmışdır ki, şəxsiyyətindən, nüfuz və səlahiyyətindən asılı olmayaraq, hamı özündən sonra dünyada bir yadigar qoymağa borcludur. Tarixi şəxsiyyətlərdən biri olan Əmir Teymur da bu fikirdə olmuş, hətta bir dəfə tarixçisinə etiraz edib demişdir: “Əgər, İsgəndər sən dediyin kimi böyük adam olsaydı, özündən sonra gördüyü şeylər: imarətlər, körpülər, yollar, saraylar, karvansaraylar qalardı. Lakin o, İranı işğal etdikdən sonra dünyanın ən gözəl memarlıq incisi Şahlarşahı sarayını od vurub yandırmışdır. Halbuki, fironlar bütpərəst idilər. Ancaq onların gördükləri işlərdən nəhəng piramidalar, qızsifət şirlər və s. qalıb.

Reallıq budur ki, Makedoniyalı İsgəndərdən fərqli olaraq Heydər Əliyev gələcək nəslə Gülüstan və Dostluq saraylarını, Azon, zərgərlik, kondisionerlər və Gəncədə billur, avtomobil, maşınqayırma zavodlarını, Sumqayıt-kimya kombinatını, Naxçıvanski adına hərbi məktəbi, “Əsrin müqaviləsi”ni, Bakı-Tbilisi-Ceyhan neft-boru kəmərini, Bakı-Tbilisi-Ərzurum qaz kəmərini və başqa sənaye-istehsalat obyektlərini qoyub getmişdir. Bunları unutmaq, sadəcə nankorluq olar.

Problemə fəlsəfi nöqteyi-nəzərdən yanaşsaq demək olar ki, şəxsiyyət yalnız tarixi hərəkatın obyekti deyil, subyektidir. Əgər o, bir subyekt kimi nəzərdən keçirilsə aydın olur ki, insanın azadlığı onun mübarizəsi ilə təmin edilir və bu yolda ciddi əngəl törədən çətinliklərin siyasi təmkinliklə aradan qaldırılması qibtəediləcək nümunəyə çevrilir. Subyektə bu fikirlə yanaşıb qiymət versək Heydər Əliyevin “Mənim həyatım xalqımın xoşbəxtliyilə bağlıdır” sözlərini xatırlatmalıyıq. Ona görə ki, bu beş sözün birləşib verdiyi məna rəhbər və xalq probleminə aydınlıq gətirir, onun fenomenliyini təsdiqləyir. Vaxtilə Prezident seçkilərində 90 faizdən çox səs alması da ona olan böyük inam və etimadla əlaqədardır. Bunu insan və zaman problemi baxımından nəzərdən keçirsək, Heydər Əliyevin hələ prezident səlahiyyətlərini həyata keçirən zaman Moskvada mətbuat konfransında müxbirlərin suallarına cavab olaraq dediyi sözlərin üstündə dayanmaq lazımdır: “Yeni Azərbaycan və yeni Əliyev” – islahatlar aparılması vasitəsilə bazar iqtisadiyyatı yolunun seçilməsi respublikanın gələcək inkişafı deməkdir (Azərbaycan – Rusiya. Əməkdaşlığın yeni mərhələsi. “Xalq qəzeti” 1993, 11 sentyabr)”. İlk baxışda bu qeyri-təvazökarlıq təsiri oyatsa da həqiqətdir. Həmin dövrdə onun alternativi yox idi. Heydər Əliyev respublikanın bir dövlət kimi möhkəmləndirilməsini, suverenliyini sıçrayışlı islahatlar vasitəsilə deyil, ətraflı düşünülmüş, insanların həyatını yaxşılaşdırmaq üçün real, əməli nəticələr verən islahatlarda görürdü.

Qeyd edək ki, Heydər Əliyev heç vaxt avtoritar rejim tərəfdarı olmamışdır. Hərçənd ki, keçmiş sovet sistemində kifayət qədər yüksək vəzifələr tutmuş lakin demokratiyaya qarmaqarışıqlıq və hərcmərclik kimi baxmamış, həmişə dövlət intizamına, qayda-qanuna və məsuliyyətə tərəfdar olmuş, adamlara inanmışdı. Heydər Əliyev hələ ötən əsrin 70-ci illərində çalışmışdır ki, elə sənaye obyektlərinin açılmasına nail olsun ki, özünün dediyi kimi onlar xalqın texniki savad səviyyəsinin yüksəlməsinə kömək etsin. Əgər o məişət kondisionerləri zavodunu tikdirməklə bir tərəfdən gəncləri texniki tərəqqiyə cəlb etmişdirsə, digər tərəfdən Azərbaycanı bütün dünyada tanıtmışdır, həm də kondisionerlər zavodu İttifaq büdcəsi hesabına tikilmişdir. Bu zavodda ən yeni texniki avadanlıqlarla tanış olan gənclər indi möhkəm biliyə malik insanlar kimi müstəqil Azərbaycan dövlətinin elmi-texniki mədəniyyətinin inkişafına kömək edir. Məhz xalqın mədəniyyətini yüksəltmək vacib şərtlərdən sayıldığına görədir ki, ümummilli lider Heydər Əliyev humanitar mədəniyyətlə texniki mədəniyyəti vəhdətdə hesab edib demişdir: “Mədəniyyət yalnız ədəbiyyatla, incəsənətlə ölçülmür. Gərək elm də, texnika da inkişaf edib xalqın xidmətində dursun”. O, bu fikrini “Əsrin müqaviləsi” ilə daha da möhkəmləndirdi. Onun dahiyana fikir və ideyalarına, həmçinin Avropa İttifaqının TRACECA, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Qars qaz kəmərləri və s. nəqliyyat-kommunikasiya vasitələrinin realladırılmasına nail olundu. Nəticədə milyardlarla dollar vəsaitlərin Azərbaycana axını başladı. Bu isə müasir Azərbaycanın iqtisadi qüdrətinin artmasına səbəb oldu. Beləliklə Azərbaycan xalqının sosial-maddi vəziyyətinin yüksəlməsinə müvafiq şərait yarandı ki, həmin dövrdən başlayaraq bu siyasi kurs hazırda da uğurla davam etdirilir.

Bu qısa xatırlatmanı ona görə diqqətə çatdırmağa çalışdıq ki, həm bu gün ki, həm də gələcək nəsil Heydər Əliyev irsinin öyrənilməsi, onun bütün sahələrə tətbiqinin çox böyük strateji mahiyyət daşıdığını dərk etməklə həmin bu irsdən istifadənin artıq bir zərurət olduğunu başa düşsün. Zənnimizcə Heydər Əliyev irsinin müəyyən məqamlarına diqqət yetirməklə qeyd olunan bəzi fikirlərimizi əsaslandıra bilərik.

Azərbaycanda ictimai-siyasi proseslərin formalaşmasında Heydər Əliyev irsinin roluna aydınlıq gətirmək üçün bir neçə məqamı nümunə olaraq misal təriqi ilə diqqətə çatdırmağa çalışaq.

İlk olaraq ondan başlayaq ki, ermənilərin Azərbaycan ərazilərinə təcavüzü, iddiaları və terroru Heydər Əliyevin Sov.İKP MK-nın büro üzvlüyündən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən heç bir səbəb olmadan, qəsdən azad edilməsindən sonra başlandı. Nəhayət 20 Yanvar hadisəsinin baş verməsi, Azərbaycan ərazisinin 20 faizinin işğalı, soydaşlarımızın dədə-baba torpaqlarından qovularaq qaçqın vəziyyətinə gətirilməsi, ümumilikdə bir milyona qədər insanın məcburi köçkün halına düşməsi və s. həmin strategiyanın məntiqi sonluqlarından biri idi.

M. Qarbaçov tərəfindən bütün ictimai-siyasi fəaliyyətində təcrid olunmuş ulu öndər Heydər Əliyevin xəstə vəziyyətdə Bakıda törədilmiş 20 Yanvar hadisələrində özünün və oğlu İlham Əliyevin həyatını riskə qoyaraq Azərbaycan nümayəndəliyinə gələrək kəskin bəyanat verməsi Azərbaycanda gedən ictimai-siyasi proseslərin daha təkmil formada fəaliyyətinə önəmli təsir göstərdi. Onun Naxçıvan Ali Sovetinin sədri vəzifəsində çalışarkən Azərbaycan bayrağının təsdiqinə nail olması da Azərbaycanda ictimai-siyasi proseslərdə pərakəndə halda fəaliyyət göstərən qüvvələrin birgə fəaliyyətinin yaranmasına təsir göstərən mühüm faktorlardan biri oldu.

Ulu öndər Heydər Əliyev irsinin öyrənilməsinin mühüm və strateji istiqamətlərindən biri də elm və təhsil sahəsidir. Böyük siyasi xadimlər yalnız təmsil etdikləri xalqın və dövlətin tarixində oynadığı müstəsna rolla deyil, həm də bütövlükdə bəşəriyyətin idarə olunmasına və gerçək taleyinə hesablanmış elmi-nəzəri baxışları ilə tanınırlar. Yüksək xarizması və idarəçilik keyfiyyətləri, uzaqgörənliyi, müdrikliyi ilə müstəqil dövlətimizin milli inkişaf yolunu müəyyənləşdirən Heydər Əliyev fenomeni də məhz belə şəxsiyyətlərdən biri kimi çağdaş tariximizdə özünə əbədi yer qazanmış, ölməz ideyaları cəmiyyətin tərəqqisinin başlıca rəhninə çevirmişdir.

Qeyd olunduğu kimi, ötən əsrin 90-cı illərindən başlayaraq Sovetlər Birliyinin süqutu nəzərəçarpacaq dərəcədə sürətləndi və yeni müstəqil dövlətlər yaranmağa başlandı. Məhz həmin suveren dövlətlərdən biri də 1991-ci ilin 18 oktyabrında özünün müstəqilliyini elan edən Azərbaycan Respublikası oldu. Təbii olaraq yeni yaranan dövlətlərlə yanaşı, Azərbaycanın da dünyaya inteqrasiyasını, yəni modernləşməsini və aktiv diplomatiya kursunu çevik şəkildə müəyyənləşdirməsini zərurətə çevirdi. Beləliklə, Azərbaycan Respublikasında da modernləşmə, diplomatiya kursunun mühüm prioritetinə çevrildi. Yəni, Azərbaycanda daxili və xarici siyasətin, iqtisadiyyatın, ordu quruculuğunun, aqrar sahənin, sənayenin və s. mövcud strukturların modernləşdirilməsi siyasəti dövlət siyasətinin strategiyasının əsasını təşkil etməyə başladı.

Qeyd etməliyik ki, həmin prosesdə mühüm həyati əhəmiyyətə malik bu məqsədlərə nail olmaqdan ötrü, strateji mahiyyət kəsb edən daha vacib bir sahə diqqətdən qaçırılmamalı idi. Bu da elm və təhsil sahəsi idi. Zənnimcə, yenicə müstəqillik əldə etmiş, Ermənistanın təcavüzünə məruz qalmış, keçid dövrünü yaşayan Azərbaycan Respublikasında elm və təhsil diqqət mərkəzindən kənarda qalsaydı və nəticədə savadsız, bacarıqsız və inkişaf etmiş dünya dövlətlərinin elmi nailiyyətlərindən və təcrübəsindən xəbərsiz kadrlarla məqsədimizə necə çata bilərdik? Bu sualın bir cavabı var. Əgər belə bir vəziyyət olsaydı, biz heç vaxt dövlətimizin inkişafından və möhkəmləndirilməsindən, bugünkü nailiyyətlərimizdən danışa bilməzdik.

> ***Mənim həyatım xalqımın xoşbəxtliyi ilə bağlıdır.***
>
> ***Heydər ƏLİYEV***
> ***Ümummilli lider***

Demək, Azərbaycan Respublikasında elm və təhsilin modernləşdirilməsi siyasəti strateji mahiyyət daşıdığından dövlətin təməl prinsiplərindən birinə çevrilir ki, bu da zərurətdən yaranır.

Qeyd olunan mühüm strateji amilləri nəzərə alan ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının müstəqilliyinin ilk günlərindən elm və təhsilin modernləşdirilməsini dövlət siyasətinin mühüm tərkib hissəsi kimi daimi diqqət mərkəzində saxladı və bu sahənin inkişafına xüsusi yer ayırdı. Beləliklə elm və təhsilin modernləşdirilməsi istiqamətində xüsusi strategiyalar, konsepsiyalar, layihələr, qanunlar işlənib həyata keçirilməyə başlandı. Bu da Azərbaycan elminin və təhsilinin beynəlxalq inteqrasiyasına geniş imkanlar yaratdı.

Ümummilli lider Heydər Əliyevə yaxşı bəlli idi ki, dövlətin, xalqın gələcək taleyi onun malik olduğu elmi-intellektual və mənəvi potensialından asılıdır. Reallıqlar sübut edir ki, daxili və xarici siyasətin strateji nüvəsini təşkil edən ümumi inkişaf konsepsiyasını elmi əsaslar üzərində qurmaqla təhsilin səviyyəsinin yüksəldilməsini dövlət quruculuğu prosesinin mühüm təminatı sayan, hər zaman proqressiv yeniliklərə istinad edən dövlətlər həmişə tərəqqiyə nail olaraq dünya arenasında özünəlayiq yer tuturlar. Yəni milli intibahın təminatında başlıca vasitə sayılan elm və təhsil həm də cəmiyyət qarşısında dayanan bir çox problemlərin həllində mühüm rol oynayır. Məhz müasir Azərbaycanın qurucusu və memarı olan ümummilli lider Heydər Əliyevin də bu yolu seçməsi əsasən elm və təhsil siyasətinin strateji mahiyyətindən irəli gəlir. Dünyəvi təhsilə inteqrasiya yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amillərindən biri kimi xüsusi diqqətin yetirilməsi onu deməyə əsas verir ki, ölkədə həmin məsələ ümumi inkişaf və dövlət siyasəti ilə vəhdət təşkil edir.

Ulu öndərin təklif və tövsiyələrinin elm və təhsilin mövcud problemlərinin həllinə yönələn bir sıra fərmanların, sərəncamların və imzaladığı mühüm dövlət proqramlarının həyata keçirilməsi onu göstərir ki, təhsil infrastrukturunu yeniləşdirmədən, müasir tipli yeni məktəblər inşa etmədən, təlim-tədris prosesinə şərait yaratmadan, dünya ölkələrinin mütərəqqi təhsil ənənələrini nəzərə almadan gənc nəslin intellektual inkişafına nail olmaq mümkün deyil. Təbii olaraq ümumtəhsil sisteminin müasirləşməsindən söz açarkən xüsusi qeyd etmək lazımdır ki, biliklərə əsaslanmış iqtisadiyyatın təşəkkül tapdığı şəraitdə İnformasiya və Kommunikasiya Texnologiyalarının (İKT) inkişafı ölkənin intellektual və elmi potensialının vacib göstəricilərindən biridir. Bu bir danılmaz faktdır ki, bu gün qloballaşan dünyada ölkələrin rəqabət qabiliyyəti, ilk növbədə, onların İKT-dən səmərəli istifadəsi ilə formalaşır. Müstəqilliyin şərəfli yolları ilə gələcəyə doğru inamla irəliləyən ölkəmizdə son illər ərzində aparılan davamlı islahatlar siyasəti dövlətimizin əhəmiyyətli dərəcədə güclənməsinə imkan vermiş, dinamik sosial-iqtisadi inkişafı və xalqımızın rifah halının yaxşılaşdırılmasını təmin etmişdir.

Qeyd etmək lazımdır ki, çağdaş zəmanəmizdə dövlət qayğısı ilə əhatə olunmuş Azərbaycanın elm və təhsilinin uğurlarının günü-gündən artmasının, inkişaf etməsinin və dünya təhsilinə inteqrasiyasının təməlində, ulu öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş siyasi kurs və bu kursun Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi durur. Prezident İlham Əliyevin dəfələrlə səsləndirdiyi “Təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biridir” – fikri təhsilin dövlət siyasətinin mərkəzi subyekti olduğunu sübut edir. Respublikamızda geniş vüsət almış yeni məktəblərin, uşaq bağçalarının, tikintisi, təhsil müəssisələrinin əsaslı təmiri, onların müasir avadanlıqlarla, informasiya-kommunikasiya texnologiyaları ilə təchizi, yeni dərsliklərin – tədris vəsaitlərinin çap edilərək pulsuz şagirdlərə çatdırılması, yeni təlim texnologiyalarının tətbiqi, pedaqoji kadr hazırlığı və s. bu kimi tədbirlər təhsilimizin möhkəm təməllər, elmi proqramlar əsasında qurulduğundan və düzgün inkişaf etdirildiyindən xəbər verir.

Azərbaycan Respublikasının mövcud potensialı müasir və innovativ təhsil sisteminin təkmilləşdirilməsi üçün geniş imkanlar açmaqla onun iqtisadi inkişafın mühüm amilinə çevrilməsini təmin etməlidir fikrini əsas götürən ölkə rəhbəri 2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə milli strategiyanın hazırlanması haqqında sərəncam imzalamış, artıq bu sahədə böyük işlər başlanılmışdır. Təbii olaraq milli mənafelərə əsaslanan maarifçilik xəttinin seçilməsi, ötən əsrin əvvəllərində yaşamış vətənpərvər ziyalılarımızın yeritdiyi maarifçilik təmayülünün inamla davam etdirilməsi millətin nurlu sabahına xidmət edir. Hesab edirəm ki, Azərbaycanda təhsil siyasətinin strateji mahiyyətindən doğan amillərin təsirindən prioritetlər sırasında elm və təhsilin mühüm yer tutması heç də təsadüfi deyil. Çünki, Azərbaycanın gələcəyinin təhsilli insanların çiyinləri üzərində qurulacağını böyük uzaqgörənliklə vurğulamış ulu öndərimiz Heydər Əliyevin mütərəqqi fikirlərindən idi.

Göründüyü kimi, bu gün Azərbaycanda həyata keçirilən elm və təhsil siyasəti strategiyasının mühüm vasitələrindən sayılan genişmiqyaslı islahatların qayəsində məhz insan faktoru dayanır. Çünki ölkənin gələcəyini yalnız zəngin maddi sərvətlərdə deyil, məhz insan kapitalının formalaşmasında görmək daha düzgün seçimdir.

Bu amili yetərincə dəyərləndirmək dünyadakı müasir inkişaf meyllərini düzgün qiymətləndirmək deməkdir.

Elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də onların birini digərindən təcrid etmək mümkün deyil. Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası labüddür.

Bu barədə fikrimizin təsdiqi verilən: “Son vaxtlar tez-tez elm ilə təhsilin inteqrasiyası haqqında müxtəlif fikirlər söylənilir. Əslində, bu iki müstəqil sistemin həmişə güclü əlaqələri olub və indi də var”, yaxud da, “elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür. O ölkədə ki, fundamental tədqiqatlar aparılmır, yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır” fenomen fikirlərin müəllifi də məhz Heydər Əliyev olmuşdur. Həqiqətən də, təhsilin yüksək səviyyəsini yalnız elm sahəsində çalışan professor-müəllim heyəti təmin edə bilər. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. İnamla demək olar ki, bu gün beynəlxalq aləmdə hər bir dövlətin nüfuzu, tanınması onun elminin və təhsilinin səviyyəsi ilə bağlıdır. Fundamental tədqiqatların və ali təhsilin vahid ictimai funksiyası biliklərin əldə edilməsi və ötürülməsidir. Bu baxımdan Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir. Təbii olaraq milli mənafelərə əsaslanan maarifçilik xəttinin seçilməsi, ötən əsrin əvvəllərində yaşamış vətənpərvər ziyalılarımızın yeritdiyi maarifçilik təmayülünün inamla davam etdirilməsi millətin nurlu sabahına xidmət edir.

Heydər Əliyev irsindən bizə örnək olacaq digər bir məsələyə də münasibət bildirmək yerinə düşər. Yəni elmi tədqiqatların nəticələrinin istehsalatda tətbiq edilməsinin zəruriliyi onun tərəfindən həmişə vurğulanırdı və fikrini belə əsaslandırırdı ki, elm ilə istehsalat arasındakı münasibətlərin düzgün tənzimləndiyi cəmiyyətlərdə elmə qoyulan vəsait çox səmərəli olur. İnkişaf etmiş ölkələrdə elm ən çox gəlir gətirən sahələrdən biridir. Bu sahəyə sərf edilən hər manatın gətirdiyi gəlir faizlərlə deyil, böyük vəsaitlərlə ölçülür. Ona görə də bu gün dövlətin və cəmiyyətin qarşısında duran əsas vəzifələrdən biri elmi potensialın qorunub saxlanması və ondan milli inkişaf naminə maksimum səmərəli istifadə olunmasıdır.

Sadalananlar onu deməyə əsas verir ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş elm və təhsilin modernləşdirilməsi siyasəti irsi onun layiqli davamçısı cənab İlham Əliyev tərəfindən bu gün də layiqincə davam etdirilir.

Ulu öndər Heydər Əliyevin Azərbaycanın xarici siyasət konsepsiyasının əsas pioritetlərindən birini də Qərbə inteqrasiya, Avropanın nüfuzlu beynəlxalq qurumları ilə birlikdə mühüm layihələrə qoşularaq ölkəmizin iqtisadi potensialını yüksəltməklə xalqımızın sosial vəziyyətinin və maddi rifah halının yaxşılaşdırılmasına nail olmaq olmuşdur. Məsələn, ümummilli lider Heydər Əliyevin qeyd etdiyi kimi: “İpək yolunun bərpası, yeni-yeni ölkələrin və regionların ona cəlb edilməsi, xalqlarımızın yaxınlaşması və qarşılıqlı surətdə zənginləşməsi, yeni müstəqil dövlətlərin istiqlaliyyətinin və suverenliyinin möhkəmlənməsi, bu dövlətlərdə demokratik islahatların, bazar islahatlarının uğurla aparılmasına düzgün təkan verəcək, hamı üçün sülhün, sabitliyin və təhlükəsizliyin təmin olunmasına kömək göstərəcəkdir. “İpək yolu” keçmişdən başlasa da, gələcəyə gedən yoldur. Əgər biz əməkdaşlıq edə – edə, bir – birimizə hörmət bəsləyərək və bir – birimizi dəstəkləyərək bu yolla birlikdə getsək, o, xalqlarımızı firavanlığa və tərəqqiyə gətirib çıxaracaqdır” (1998-ci il sentyabrın 7-də Bakıda keçirilmiş Böyük İpək Yolunun bərpası və dirçəldilməsinə həsr olunmuş Beynəlxalq Konfransın materiallarından).

Ulu öndər Heydər Əliyevin İpək yoluna verdiyi böyük önəm belə bir qənaətə gəlməyə əsas verir ki, dünya dövlətləri arasında strateji mahiyyət daşıyan beynəlxalq münasibətlərin yaranması və onun qlobal inkişaf səviyyəsinə qaldırılması hər bir ölkə üçün prioritetdir. Həmin siyasi missiyanın yerinə yetirilməsi üçünsə bir çox vasitələrdən istifadə olunmuşdur ki, bunlardan da ən qədim tarixə malik olanı xarici ticarət əlaqələrini xüsusilə qeyd etmək lazımdır. Çox vaxt siyasi mahiyyəti tam aydın olmayan həmin xarici əlaqələrin dövlətlərarası beynəlxalq münasibətlərdə müstəsna əhəmiyyət kəsb etməsi istər əvvəllər, istərsə də müasir dövrdə real şəkildə təsdiqini tapır. Məhz bu reallıqların həyata keçirilməsində mühüm vasitələrdən biri “İpək yolu” olmuşdur.

Hesab edirik ki, Heydər Əliyevin fəaliyyəti kontekstində Azərbaycanın beynəlxalq münasibətləri və qlobal inkişafın siyasi problemləri məsələlərini sadalanan müddəalar istiqamətində tədqiqata cəlb etmək mövzunun aktuallığından irəli gəlir.

Yaxın tariximizə qısa ekskurs etsək görərik ki, XX əsrin ikinci yarısından başlayaraq, traskontinental – diplomatiya yolu sayılan “Böyük İpək yolu”nun bərpası və dirçəldilməsi məsələsi artıq dünyanın inkişaf etmiş bir çox dövlətlərinin və nüfuzlu beynəlxalq təşkilatların maraq dairəsində idi. Çünki onlar yaxşı dərk edirdilər ki, bu yolun bərpası və dirçəldilməsi hər bir dövlətin beynəlxalq münasibətlərində, qlobal inkişafında, strateji maraqların təmin olunmasında, iqtisadi tərəqqidə və regional konfliktlərin müsbət həll olunmasında əhəmiyyətli rol oynaya bilər. Zənnimizcə UNESCO–nun 1980-ci illərdən başladığı tədbirlər və Avropa İttifaqının həyata keçirdiyi proqram və layihələr nümunə kimi gətirilə bilər.

Dünyanın müstəqil dövlətlərindən fərqli olaraq, sovet imperiyasının tərkibində olan Azərbaycan sərbəst beynəlxalq münasibətlər qurmaq imkanında olmadığından təbii ki, qlobal inkişafı özündə ehtiva edən həmin proqram və layihələrdə iştirak edə bilməzdi.

Ulu öndər Heydər Əliyev irsinin uğurlu davamı olaraq həm Azərbaycan, həm də dünya dövlətləri üçün qlobal strateji əhəmiyyətli yeni layihələrin hazırlanaraq həyata keçirilməsi mühüm vəzifələrdən idi. Məhz belə bir layihələrdən biri də Şərq ilə Qərbi birləşdirəcək Bakı-Tbilisi-Qars dəmir yoludur ki, hələ bu strategiya hazırlanarkən bəzi dairələrdə, bir neçə xarici ölkələrdən qısqanclıq zəminində bu yolun perpektivsizliyi bildirilirdi. Lakin, zaman keçdikcə Prezident İlham Əliyevin inamı və qətiyyəti nəticəsində həmin məsələ reallaşdırıldı. Qardaş Türkiyənin İpək yolunun davamı (bu eyni zamanda Dəmir İpək yolu da adlandırılırdı-H.H.) saydıqları Şərq ilə Qərbi birləşdirən həmin yol artıq yüksək səviyyədə səmərəli şəkildə fəaliyyət göstərir. Statistik göstəricilər onu deməyə əsas verir ki, yükdaşımaların həcmi gözlənilənlərdən daha yüksəkdir və həmin göstəricilər, tələbatın sürətlə artması səbəbindən Beynəlxalq Ticarət Limanının genişləndirilməsini, yeni terminalların tikintisini zəruri edir. Həmin strateji amili nəzrə alan Prezident İlham Əliyev həmin məsələləri daim diqqətdə saxlayır müasir dünya standartlarına cavab verən, yükdaşımalar üçün əlverişli olan tikililərin inşası üçün lazımı maliyyə vəsaiti ayırır və beləliklə də bunların operativ şəkildə reallaşmasına nail olur.

Zənnimizcə, ulu öndər Heydər Əliyev irsinin uğurlu davamı həm Azərbaycan, həm də dünya dövlətləri üçün qlobal strateji əhəmiyyətli yeni layihələrin hazırlanaraq həyata keçirilməsidir. Əminliklə demək olar ki, Heydər Əliyevin müəyyən məqamlarda hətta həyatın itirilmək qorxusu yaransa belə xalqın gələcək xoşbəxtliyi naminə riskə getmək yolunu seçməsi yalnız fenomen şəxsiyyətlərə xas olan xüsusiyyətlərdəndir. Belə bir müqəddəs yolun seçilməsi isə tarixi fenomenal şəxsiyyət olan Heydər Əliyevin həyat amalı olmuşdur ki, bu da onun bizə qoyub getdiyi böyük bir irsdir.

***Habil HƏMİDOV,***
***AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru***